## ZAQATALANIN QAFQAZ ALBANİYASI DÖVRÜ MEMARLIĞI

**Əliyeva Rahibə Şanxay qızı**- m.f.d., dosent, Landşaft memarlığı kafedrası, AzMİU, rahibe_eliyeva mail.ru

**Annotasiya.** Dövrümüzə gəlib çatmış çoxsaylı monumental memarlıq abidələri Alban memarlarının yüksək sənətkarlığından xəbər verir. Bu dövrün memarlığı haqda zəngin və hərtərəfli məlumatı müdafiə və dini tikililəri verir. Alban memarlığının müəyyən bir hissəsinin Zaqatala ərazisində yerləşmiş nümunələri haqda məlumatları bir sıra elmi mənbələrdən və arxeoloji tapıntılardan almaq mümkündür. Zaqatala ərazisində Qafqaz Abaniyasının dini abidələri əsasən IV- XVI əsrləri əhatə edir. Çox nefli, bazilikalı, bir zallı, tağ- tavanlı, dairəvi plan quruluşlu dini məbədlər Zaqatalanın bir sıra kəndlərində səpələnmişdir. Müxtəlif tipli xristian abidələri, qalalar, kilsə, məbəd və sövmənişinlər bölgənin əyalətlərində çətin relyefdə, meşəlik ərazilərində qalmaqdadır. Rayonun əsasən kəndlərində qalmış Alban abidələrinin maliyyə çətinlikləri üzündən yenidən bərpası mümkün olmasa da, qismən də olsa qorunması sahəsində müəyyən işlər görülmüşdür.
**Açar sözlər**: Zaqatala, Qafqaz Albaniyası dövrü memarlığı, dini tikililər, mülki memarlıq, müdafiə tikililəri

## THE ARCHITECTURE OF CAUCASIAN ALBANIA PERIOD OF ZAGATALA

**Aliyeva Rahiba Shanhay**- PhD in architecture, docent, department of Landscape architecture, AzUAC, rahibe_eliyeva@mail.ru

**Abstract.** Numerous monumental architectural monuments reached to our era deals with high skill of Albanian architects. Rich and comprehensive information about the architecture of this era is provided by the defense and religious buildings. It is feasible to get information about the samples of some parts of the Albanian architecture located on the territory of Zagatala from a number of scientific sources and archaeological findings.Religious monuments of Caucasian Albaniain the territory of Zagatala cover mainly the IV-XVI centuries.In multi- nave and basilica style, with a hall, arch-ceiling, circular plan-shaped religious temples were scattered in a number of villages of Zagatala.Christian monuments of different types, castles, churches, temples and chapelsremain in a difficult relief, in the woodygorges of the provinces of the region.Despite the financial difficulties of the Albanian monuments, which were mainly in the villages, it was not possible to restore, but partial protection was also undertaken.
**Keywords:** Zagatala, architecture of Caucasian Albania, religious buildings, residential architecture, defense buildings

Zaqatalanın dövrümüzə gəlib çatmış çoxsaylı monumental memarlıq abidələri Alban memarlarının yüksək sənətkarlığından xəbər verir. Bu dövrün memarlığı haqda zəngin və hərtərəfli məlumatı müdafiə və dini tikililəri verir. Alban memarlığının müəyyən bir hissəsinin Zaqatala ərazisində yerləşmiş nümunələri haqda məlumatları bir sıra elmi mənbələrdən və arxeoloji tapıntılardan almaq mümkündür. Zaqatala ərazisində Qafqaz Albaniyasının dini abidələri əsasən IV – XVI əsrləri əhatə edir. Çox nefli, bazilikalı, bir zallı, tağ- tavanlı, dairəvi plan quruluşlu dini məbədlər Zaqatalanın bir sıra kəndlərində səpələnmişdir. Müxtəlif tipli xristian abidələri, qalalar, kilsə, məbəd və sövmənişinlər bölgənin əyalətlərində çətin relyefdə, meşəlik ərazilərində qalmaqdadır. Rayonun əsasən kəndlərində qalmış Alban abidələrinin maliyyə çətinlikləri üzündən yenidən bərpası mümkün olmasa da, qismən də olsa qorunması sahəsində müəyyən işlər görülmüşdür. Zaqatalanın Alban dövrü abidələri iki qrupa bölünür:

I**. Müdafiə qalaları:** 1. Zaqatala səddi (V –VII əsr), 2. Pəri qala (III – VI əsr), 3. Şeytan qala (VII əsr), 4. Kaşqa–təpə qalası

II**. Dini tikililər:** 1. Mamrux kəndində Armatian məbədi (IV-V əsr), 2. Mamrux kəndində məbəd (V-VI əsr), 3. Paşan kəndində kiçik kilsə (IV-V əsr), 4. Pipan kəndində üç kilsə (VII-VIII əsr), 5. Qabizdərə kəndində kilsə (VI-VIII əsr), 6. Çudulubinə kəndində kilsə (XVI əsr).

**Müdafiə qalaları**. **Zaqatala səddi.** Azərbaycan ərazisində bu sədd "Qafqaz səddi" də adlanır. Təqribən V-VII əsrlərə aid edilir. Balakən rayonu Katex kəndinin qərbindən başlayıb Alazan-Həftəran vadisi, Balakən-Zaqatala şosse yolunun sağı boyunca, Gürcüstan sərhədinə kimi uzanır. XIX əsrin birinci yarısına aid məlumatlara görə Zaqatala səddi Şəkiyədək uzanırmış. Müdafiə xarakterli sərhəd boyu uzanan bu səddin Balakəndən Qax dərəsinədək uzunluğu 50 km-dir. Səddin Balakən və Zaqatala arasındakı 30 km-lik hissəsi nisbətən salamat qalmışdır. Çay daşından hörülmüş Zaqatala səddi divarının hündürlüyü 3-4 m., eni isə 1,40 – 1,45 m. olmuşdur. Zaqatala səddi düz xətt boyunca uzanır (yalnız Katex kəndi yaxınlığında kiçik döngəsi var). Səddin Kaspidor və Muxax dərələrindən keçən hissəsində mazğallı bürclər və müxtəlif müdafiə istehkamları olmuşdur. Şamil hərəkatı zamanı Zaqatala səddi ətrafında çar qoşunları ilə Şamil tərəfdarları arasında bir neçə dəfə silahlı toqquşmalar (1847-ci il, 5 may) baş vermişdir [1]. Hal-hazırda Zaqatala səddinin qalıqları Aşağı Tala kəndi ərazisində qalmaqdadır, bərpa və ya konservasiyaya ehtiyacı var.

**Pəri qala**- Zaqatalanın Yuxarı Çardaqlar kəndinin Xangildağ dağının cənub ətəyində, qayanın içərisindəki nadir abidələr sırasına daxildir. İki dərin olmayan taxçalı yarımdairəvi tağlar, iki qapı təəssüratı yaradır. Qapı portalı qayalıq üzərində durmaqla qaya daşından ovulmuşdur. Portal ağ üzlük daşla örtülmüşdür, künclərdə merlonlar qurulmuşdur. Qalaya yol, qayanın altından açıq səma altında başlanan pilləkənlə mümkün olmuşdur. Pilləkənlər giriş qapısına kimi hündür olmayan marşlarla qalxmışdır. Qalaya aparan gizli yollar hal-hazırda uçub-dağıldığı üçün qalaya düşmək və onu hərtərəfli tədqiq etmək böyük çətinlik yaradır. Buna bir neçə dəfə cəhdlər olunsa da, nəticəsiz qalmışdır. Verilən məlumatlara görə qaya içərisində dini məbəd yerləşir. Məbəd kiçik pəncərələrlə işıqlanırmış. Lakin məbəddə altar (mehrab) yoxdur. Altarın olmaması qalanın od məbədi olması iddiasını yaradır. Belə ki, Qafqaz Albaniyası dövründə Sasanilərin bu ərazilərə hücumları, Zaqatala səddinin "Yuxarı Çardaqlar" kəndi yaxınlığında qurulması onu göstərir ki, işğalçılar öz "Zərdüşt" dinini ərazidə yaymaq məqsədilə bu məbədi inşa etmişlər. Albanların IV əsrdə xristianlığı qəbul etdikdən sonra belə, şimal-qərb bölgələrində oda sitayiş ayinləri qalmaqda idi. Lakin xristianlığın zərdüştlüyü sıxışdırdığı bir dövrdə, dinlərindən dönməyən ibadətçilər odu qorumaq məqsədilə onu əlçatmaz məkanlara qaldırmışlar. Od məbədlərində od mərkəzdə yerləşdirilir və qorunurdu. Bu tipli analoji sasani məbədləri İran, Hindistan, Çin və s. ölkələrdə yayılmışdır. İranda Taqi-Bostan, Azərqoşnəsb, Təxti-Süleyman və s. məbədlərdə od, dağların başında inşa olunmuş "Cahar tağlarda" (Dörd tağ) qorunurdu. Pəri qalaya aid əfsanələrin birində, sasanilərə xas olan adətə görə atasının onunla evlənmək istədiyini görən Pəri adında qız özünü qayadan aşağı atmışdır [4].

Digər bir əfsanədə isə XIV əsrdə Teymur-Ləngin əraziyə hücumları zamanı, qalada yaşayan və ibadətlə məşğul olan Pəri adlı qadın qalanın müdafiəsinə qalxır. Teymur-Ləng hücumlara başçılıq edərək, Pərini məğlub edib öz xanımı edəcəyini bildirir. Lakin qalanın məğlubiyyətini görən Pəri, düşmənə təslim olmayaraq özünü qaladan atır. Qala o dövrdən "Pəri qala" adını alır. Abidənin tikintisi V-VI əsrlərə aid edilir. A. Qarəhmədovanın verdiyi məlumata görə "Yuxarı Çardaqlar" kəndinin adının "Çahar tağ" lı od məbəblərindən götürüldüyü bildirilir [4]. Qaladan Alazan vadisinə gözəl mənzərə açılır. Lakin məncə, Yuxarı Çardaqlar kəndinin toponiminin məhz dağın başında, yuxarıda yerləşmiş "Çardaqlar"la yəni kənd evlərində yuxarı otaq, dam çardaqla bağlı olduğunu iddia etmək olar.

**Şeytan qala**- Zaqatalanın Oxaqdərə kəndində dağlıq- meşəlik ərazidə müdafiə məqsədilə qurulmuşdur. Qala şimal sərhədlərini qorumaqla inşa tarixi VII əsrə aid edilir. Tikinti çay daşı və yerli "şirin daşla" icra olunmuşdur. Hal-hazırda qalanın bürcü yarı uçulmuş şəkildə dövrümüzə gəlib çatmışdır. Abidə №5223 inventar nömrəsi ilə qorunmaqdadır, konservasiyaya ehtiyacı var.

**Kaşqa-təpə qalası-** Zaqatala-Balakən yolunun cənubunda, yer səviyyəsindən 100m hündürlükdə yerləşir. Masex kəndi yaxınlığındakı kiçik qalanın müdafiə divarlarının yalnız bünövrəsi qalmışdır. Əlverişli relyefdə yerləşən və ətraf ərazini, eləcə də Zaqatala-Balakən yolunu nəzarətdə saxlayan qalanın girişi cənub fasaddadır. Qalanın eni- 30m., uzunluğu-80 m-ə bərabərdir. Mövcud dağıntının qalıqlarının hündürlüyü H- 3,4 m., divarların qalınlığı bir metrdir.

**Dini tikililər**. II tip Alban tikililəri- dini abidələr, naturada tədqiqat zamanı müxtəlif vəziyyətdə aşkarlanmışdır. Alban dini memarlığı orta əsrlər dövründə yüksək təkamül prosesi keçmişdir. Sadə plan quruluşundan başlayaraq təkmilləşmiş bu tikililəri xronoloji inkişafına görə iki dövrə bölmək olar: 1. İlkin orta əsrlərin Alban dini abidələri (IV- VIII); 2. Son orta əsr dini abidələri (XVI əsr)

IV əsr Qafqaz Albaniyası üçün feodal münasibətlərinin yaranması və xristianlığın bir dövlət dini kimi təsdiqi kimi yadda qaldı. Ölkə ərazisində mədəni həyatın inkişafı öz növbəsində təsirini tikinti sahəsinə də göstərdi. Belə ki, feodallar yeni dinin tələblərinə uyğun olaraq dini məbədlərin tikintisinə, bəzən isə mövcud od və bütpərəstlik məbədlərinin xristian dininə xidmət məqsədilə yenidən qurulmasına başladılar. Belə nümunələrdən biri də Zaqatala ərazisində aşkarlanmış büt məbədi olmuşdur [3]. Büt məbədlərində, səcdəgah– mehrabın qərbdən şərqə, keçirilməsi, girişin isə qərb istiqamətindən başlanması Alban xristian kilsələrinin köhnə məbədlərdəki yenidənqurma işlərinin məhsuludur.

Zaqatala ərazisindəki ilkin orta əsr məbədlərini plan kompozisiyası və örtük konstruksiyasının həllinə görə üç təsnifata bölmək olar: 1.Dairəvi plan quruluşlu, gümbəzli (Mamrux IV-V əsrlər), 2.Xaçvari plan quruluşlu, mərkəzi gümbəz konstruksiyalı ( Qəbizdərə VI əsr ), 3.Bir zallı, düzbucaqlı plan quruluşlu və tağ- tavan konstruksiyalı, iki çatılı dam örtüklü (Pipan VII-VIII, Buxovlu VII-VIII əsrlər, Mamrux V-VI, Paşan IV-V əsrlə). Zaqatala ərazisində ən qədim Alban məbədi Mamrux kəndindəki dairəvi plan quruluşlu məbədi hesab etmək olar. Alban dini memarlığının maraqlı tiplərindən olan dairəvi məbədlərin Azərbaycan ərazisində üç nümunəsi qalmaqdadır. Mamrux məbədi Kilsədağ və Ləkit məbədlərindən örtük konstruksiyasına görə fərqlənir.

Mamrux məbədi hündür dağlıq və meşə ərazisində dairəvi qala müdafiə divarlarının əhatəsində, mərkəzdə yerləşmişdir. Armatian dağının ətəyində yerləşən bu məbəd, dağın adına uyğun olaraq “Armatian” məbədi adlandırılır. “Armaiti” toponimi zərdüştlük dininə uyğun olaraq “Yerin Allahı” və ya “Barışıq Allahı” kimi izah olunur [5]. Dini məbəd kompleks tikililərlə inşa olunmuşdur. Abidənin qalıqlarına əsasən P.D. Baranovski – məbədlərin ilkin tədqiqatçısı kimi – Zaqafqaziyanın tetraxonklu ilkin abidələrindən hesab etməklə onu V əsrə aid etmişdir [7].

Məbədin dairəvi apsidalı mehrabı yaxşı vəziyyətdə dövrümüzə gəlib çatmışdır. Tikilinin digər divarları yer səviyyəsindən bir metr hündürlükdə qalmaqdadır ki, bununla məbədin plan quruluşunu müəyyən etmək mümkündür. Şimal, cənub və qərb tərəfdən olan girişlərə şərqdən altar, yarım dairəvi apsida ilə birləşir. Girişlər dərin və dar taxçalı portalla həll olunmuşdur. Diametri 12,8 m. olan zal iki hissədən ibarətdir: a) gümbəzaltı kvadrat; b) onun ətrafındakı dövrələmə zal.

Dörd pilonun əmələ gətirdiyi tağlar barabanı, o isə öz növbəsində gümbəzi saxlamışdır. Eləcə də kiçik D=3,20 m-ə bərabər olan məbədin iki xarici, dairəvi otaqları xüsusi maraq kəsb edir. Bu otaqların hər biri iki pəncərə ilə işıqlandırılır. Baş zala açılan qapılar 40 sm. enində, 95 sm. dərinliyində taxçalarla işlənmişdir. Məbədin qalıqları onun müxtəlif hündürlüklərlə həll olunduğunu göstərir. Məbədin divarları çay daşlarından, pilonlar butobeton kütləsindən, binanın tağ- tavanı, ölçüləri 24x24x5 sm və 23x23x5 sm-ə bərabər olan kərpiclə tikilmişdir. Divarlarda rəsmləri xatırladan yazılara rast gəlinir.

Məbədin plan quruluşunun maraqlı həlli və onun ətraf landşaftla yaratdığı harmoniya, bu abidənin alban memarlığının mirvarisi olduğunu bir daha sübut edir. Armatian dairəvi məbədinin konstruksiyası daha sonralar Ləkit (Qax rayonu) və Qafqazın digər regionlarında inşa olunan rotonda şəkilli tikililərə öz təsirini göstərmişdir.

Xristian məbədlərinin ilkin orta əsrlərdə rast gəlinən tiplərindən biri də xaçvari plan quruluşlu dini binalardır. Belə tipli binaların bariz nümunəsi Qəbizdərə kəndindəki Alban kilsəsidir. Kilsə kiçik həcm-fəza tutumuna malikdir (7,7 x 6 m). Plan quruluşu daxildə xaçvari, xaricdə isə düzbucaqlıdır, örtük konstruksiyası mərkəzi gümbəzlidir. Kilsənin divarlarının inşaat materialı çay daşından, örtük konstruksiyası kərpicdən ibarətdir, qapı və pəncərələr "şirin daşla" üzlənmişdir. Bir zallı kilsəyə giriş cənub istiqamətdədir, interyer qərb istiqamətdən iri pəncərə ilə işıqlandırılır. Altar –mehrab şərqə istiqamətlənmiş, daxildən yarım dairəvi, xaricdən isə apsida beş bucaq şəkillidir və xaçvari plan quruluşunun şərq istiqamətə uzanmasına səbəb olmuşdur. Mehrab üç kiçik pəncərədən işıqlandırılır. Bu cür işıqlanmaya Mamrux kəndindəki dairəvi məbədin mehrabında da rast gəlinir. Qəbizdərə kilsəsinin inşa tarixi VI əsrə aid edilir. Örtük konstruksiyasını saxlayan daxili dörd tağ trompların köməyi ilə günbəzi saxlayır. Sasanilər hakimiyyəti dövründə, Zərdüşt dininin od ibadətgahlarında məhz ilk dəfə dörd tağlı məbədləri yaratmaqla onları tromplarin köməyi ilə gümbəzlə örtmüşlər. Əsasən cənubi Azərbaycan ərazisində mövcud olmuş Azərqoşnəsb, Bişapur, Firuzabad məbədləri Alban dini memarlığını bu cür konstruksiyalarla yararlandırmışdır. Bu formalı, mərkəzi günbəzli, xaçvari plan quruluşlu Alban dini tikililəri öz plan kompozisiya xüsusiyyətləri ilə Azərbaycandakı sonrakı Alban və eləcə də islam dini tikililərinə təsir göstərmişdir. Belə ki, islam məscidləri- Abşeronun Mərdəkan kəndindəki Tuba-Şahi (XV əsr), Qala kəndindəki Hacı- Ramazan (XVII- XVIII əsr), Buzovnadakı Tərsa-Pir bu konstruksiyadan bəhrələnmişdir.

Zaqatala bölgəsində inşa olunmuş III tip alban dini binalarının nümunələrinə Mamrux (V-VI əsrlər), Paşan (IV- V əsrlər), Pipan (VII- VIII əsrlər) kəndlərində rast gəlinir. Zaqatalanın tarixi kəndlərindən olan Mamrux, alban–xristian mədəniyyətinin izlərini özündə saxlayan əyalətlərdən biridir. Mamrux kəndində dövrümüzə gəlib çatmış dini tikililərdən biri də meşəlik ərazidə inşa olunmuş kiçik kilsədir. Kilsə V- VI əsrlərə aid edilir. Bu tipli digər bir kiçik kilsə Zaqatalanın Paşan kəndində rast gəlinir. Hər iki dini tikilinin ümumi cəhətləri onların bir zallı, tağ- tavan örtüklü olmalarından irəli gəlir. Kilsələrin xarici dam örtükləri iki çatılı olub, əsasən kirəmiddəndir. Tikinti materialı kimi Paşan məbədində kiçik çay daşlarından istifadə olunmuşdur. Tağ- tavanın quruluşunda kərpic əsas inşa materialı olmuşdur. Mamrux kilsəsində üzlük faktura yonulmuş daşdan ibarət olmuş, divarların konstruksiyasında və hörgüsündə kərpic daş uyğunluğu nəzərə çarpır.

Meşə landşaftı ilə harmoniyada həll olunan hər iki kilsə göz önündə gözlənilməz mənzərə açılışına səbəb olur. Paşan məbədinin sol- yan fasadında maili örtüklü eyvan qurulmuşdur. Alban məbədlərindəki maili, iki çatılı dam örtük konstruksiyaları, Zaqatalanın gələcək memarlığında həm yaşayış, həm də islam dini memarlığında geniş istifadə olunmuşdur. Bu konstruksiya, tarixi, iqlim xüsusiyyətləri və yerli tikinti xammalı nəzərə alınmaqla ərazidə əsas örtük konstruksiyasına çevrilmişdir. Mamrux kilsəsi 385, Paşan kilsəsi isə 384 saylı inventar nömrəsi ilə qorunmaqdadır, hər iki abidənin konservasiyaya ehtiyacı var.

VIII əsrdə Ərəb istilaçılarından sonra islam dini Azərbaycanda xristianlığı sıxışdırmaqla hakim mövqeyə sahib oldu. İslamın möhkəmlənə bilmədiyi ərazilərdə isə yeni alban knyazlıqları- Syunik, Ktiş, Varsan, Beyləqan, Qəbələ və Şəki yaradıldı. Ölkə daxilində alban müsəlman, alban-xristian və qismən də atəşpərəstlər yanaşı yaşamaqda idi [7]. Lakin ərəb xilafətinin siyasəti nəticəsində xristian xalqı dövlətçiliyini itirməklə VIII əsrdə alban kilsəsini erməni kilsəsinə tabe etdi.

İlkin orta əsrlərin sonlarında islam dini Qafqaz Albaniyasının dövlətçiliyinə xüsusilə təsir göstərmişdi. Belə ki, bu dövrdə Alban memarlığının inkişafında xüsusi fasilə hökm sürür. Albaniyanın dövlətçiliyinin dağılması, xristian memarlığının bir ideologiya olaraq mahiyyətini itirməsi, alban əhalisinin etnik təzyiqlərə məruz qalması artıq Alban dini memarlığının müəyyən ərazi çərçivələrində, dağlıq və dağ ətəyi zonalarda, meşələrdə inşasına şərait yaratdı. Məbədlərin ölçüləri xeyli kiçildildi və onlar daha sadə və ciddi memarlıq üslubunda inşa olunmağa başladı. Bu dövrün xristian tikililəri kiçik həcm- fəza tutumu ilə yan-yana tikilirdi. Bu baxımdan Zaqatalanın Pipan kəndi yaxınlığında tikilən üç kilsəli bazilika (VII –VIII əsrlər) xüsusi maraq doğurur.

Birinci bazilika kənddən uzaq olmayan meşəlik ərazidə inşa olunmuşdur. O, bir nefli zaldan və onu üç tərəfdən əhatə edən koridordan ibarətdir. Mərkəzi zal (3,4 x 6,5m.) şərq tərəfdən nisbətən hündür olan apsidalı altardan və yan tərəflərdən dərin taxçalardan ibarətdir. Bina şərq və qərbdən kiçik pəncərə ilə işıqlandırılır. Divardakı pilyastrlara söykənən vintvari tağ zalın tağ- tavanını saxlayır. Giriş mərkəzdən şimala doğru kənarlaşdırılmışdır. Mərkəzi zalın altında üç metr hündürlükdə daha bir eyni tipli zal mövcuddur. Şimaldan və cənubdan zala iki dar tağ- tavanlı yerləşkələr birləşir. Binanın fəza kompozisiyası maraqlıdır, mərkəzi hündür (6,5m.), qərb tərəfdəki yerləşkənin nisbətən alçaq, digər tərəfdə isə daha alçaq qalereya bir-biri ilə sintez yaradır. Məbəd çay daşı və əhəngdən inşa olunmuş və üçüncü tip xristian məbədlərinə xas olan iki çatılı dam örtüyünə malikdir. Örtük kirəmiddən ibarətdir. Abidənin memarlıq üslubu sadə və ciddi, ilkin xristian abidələrinə xas olan dekorsuz görkəmdədir.

Pipan kəndindən 3 km. məsafədə, hündür dağlıq və meşəlik ərazidə bu tipli ikinci məbədin dağıntıları qalmaqdadır. Buxovlu kənd ərazisinə daxil olan bu ikinci məbəd də VII- VIII əsrlərə aid edilir. Abidənin yalnız uçmuş divarları qalmış, dam örtüyü tamamilə dağılmışdır. Mərkəzi bir nefli zal «T» şəkilli pilyastrların və vintvari tağların köməyi ilə tağ-tavanla örtülmüşdür. Şərqə istiqamətlənən apsidalı altar yarım dairəvi forması ilə bir pəncərə ilə işıqlanır. Yan tərəfdə kiçik taxçalar sanki altarın "cibcikləri" rolunu oynayır. Mərkəzi zal təqribi olaraq üç düzbucaqlı yerləşkəyə bölünür. Zalı dövrələyən dəhlizlərlə əlaqə şimal, cənub və qərb istiqamətlərindəki qapılarla yaradılır. Şimal və cənub dəhlizlər kiçik ibadət zalları kimi kiçik apsidalı altarla tamamlanır. Altar kiçik pəncərələrlə işıqlanır. Tağ-tavanlı dəhlizlər sanki üç nefli bazilikanın yan neflərini təşkil edir. Buxovlu məbədi çay daşı və kərpiclə inşa olunmuş, iki çatılı maili dam örtüyünə malikdir, örtük kirəmiddən ibarətdir.

Zaqatalanın Pipan kəndində üçüncü abidənin qalıqları dağ ətəyində yerləşən, mərkəzi gümbəzli, xaçvari plan quruluşlu kilsə kimi aşkarlanmışdır. Tikili çay daşından inşa olunmuşdur. Sərbəst xaç şəkilli plan quruluşu, düzbucaqlı apsida, onun künclərindəki hündür taxçalar interyer kompozisiyasını tamamlayır. Yarımdairəvi tağlar kilsənin mərkəzdəki örtük konstruksiyası olan gümbəzi saxlayır. Künclərdəki tromplar yükdaşıyıcı və ötürücü funksiya daşıyır. Kilsəyə giriş qərb istiqamətində, mərkəzi oxdan kənarda açılmışdır. Altar apsidası kiçik pəncərə ilə işıqlandırılır. Tədqiqatçı, alim A. Qarahmədova bu kilsənin movzoley olduğunu və xaç şəkilli divarların küncündə, divara oturdulmuş bardaqların arxeoloji qazıntılar zamanı aşkarlandığını bildirir. Abidənin analoqlarına (Kiçik Asiya, Xersones) uyğun olaraq Pipan kilsəsini VI-VII əsrlərə aid edirlər. Tikintinin XII əsrdə təmir olunduğu məlumatlandırılır [5]. Zaqatalanın Pipan kəndindəki bu kilsənin plan quruluşu Azəpbaycan ərazisindəki bir sıra islam tikililərində təsadüf olunur. Belə tipli türbə Bakının Balaxanı kəndindəki "Şakir ağa" abidəsidir. Analoji hal olaraq eyni plan quruluşunun təkrarlanması, altarın (mehrabın) cənub istiqamətində qurulması və tağların çatma forması ilə fərqlənir. Zaqatala ərazisində inşa olunmuş Alban-xristian abidələri əsasən ilkin orta əsrlər dövrünü əhatə edir. Belə ki, dövrümüzə gəlib çatmış abidələrin əksəriyyəti tikinti texnikası, örtük konstruksiyası və kompozisiya xüsusiyyətlərinə görə IV-VIII əsrlərə aid edilir.

IX əsrdə Alban kotalikosu erməni kilsəsindən ayrılmaqla yenidən öz sərbəstliyini bərpa etmiş və IX əsrin ortalarında Qafqaz Albaniyası ərazisində gələcək sosial-iqtisadi və mədəni həyatın inkişafı üçün şərait yaratmışdır.

İnkişaf etmiş feodalizm dövründə geniş yayılmış islam memarlığı ilə yanaşı xristian memarlığı da yüksək inkişaf dövrünü yaşamaqda idi. Qeyd etmək lazımdır ki, hətta bu dövrün xristian dini memarlığı həcm-fəza tutumu və kompozisiya xüsusiyyətlərinə görə ilkin orta əsr abidələrini üstələyirdi. Lakin alban kilsəsi ətrafında cəmləşən sərbəst alban knyazlıqları məbədlərini dağlıq-meşəlik, çətin keçilən ərazilərdə mərkəzləşdirirdilər. Bu dövrü Qafqaz Albaniyasının xristian mədəniyyətinin ikinci inkişaf dövrü kimi qiymətləndirmək olar. Azərbaycanın qərb rayonlarında inşası geniş vüsət almış Həmşivəng, Xudavəng, Gəncəsar, Gütəvəng, Qızılvəng məbədləri dövrünün ən iri həcm-məkan tutumlu tikililəridir.

Zaqatala bölgəsində bu dövrdə inşa olunmuş xristian məbədlərindən yalnız Çudulu-Binə kəndindəki XVI əsr məbədi dövrümüzə gəlib çatmışdır. Xalq arasında tikili Pəri qala kimi də tanınır. Lakin tikilinin plan quruluşu və ibadət üçün istiqamtlənmiş altarı onun məhz dini bina olduğunu sübut edir. Qeyd etmək istərdim ki, xalq arasında "qala" kimi qeyd edilən dini abidələr, dövrünün müdafiə tikililəri kimi də istifadə olunmuşdur. Möhkəm konstruksiyalı, iri həcm-məkan tutumlu bu binalar, düşmən hücumları zamanı "Allah evi" kimi Allaha pənah aparmaqla əhalinin sığınacağına çevrilmişlər.

Çudulu-Binə kilsəsinin kompozisiyası kvadrat şəkilli olmaqla (22x22m) gümbəz konstuksiyalıdır. Planın xaç şəklini künclərdəki yerləşkələr yaradır. Binanın şərqində yarımdairəvi aspidalı altar yerləşir. Altar bir, yan yerləşkələr iki pəncərə vasitəsilə işıqlandırılır. Binanın şimal və cənub istiqamətlərinə də belə pəncərələr açılır. Gümbəz və tağ-tavanı saxlayan çatma tağların islam memarlığının təsiri nəticəsində yarandığı aydın görünür. Tağlar öz növbəsində hündür barabanı, baraban isə səkkizguşəli gümbəzi saxlamışdır. Gümbəz 1971-ci ilə kimi salamat qalmışdır [7]. Kiçik hücrələrə giriş iki istiqamətdən çatma kiçik tağlarla həll olunmuşdur. Kilsə tam kərpiclə hörülmüşdür. Hal hazırda abidə 6056 inventar nömrəsi altında qorunmaqdadır, konservasiyaya ehtiyacı var.

Gümbəzli, xaçvari plan quruluşlu Alban- xristian məbədlərindən olan Çudulu- Binə kilsəsi ilkin feodal dövrü dini abidələrindən bəhrələnsə də həcm-fəza tutumu mürəkkəb plan quruluşu və islam dini abidələrinin elementləri ilə keçmiş dini tikililərdən fərqlənir. G.H. Məmmədovanın "Qafqaz Albaniyası memarlığı" monoqrafiyasında Azərbaycan ərazisindəki Alban dini memarlığı, eləcə də Zaqatala bölgəsindəki abidələr geniş tədqiq olunmuşdur [6].

**Nəticə.** Tədqiq olunan Zaqatala xristian abidələrində müxtəlif formalı altarlara (mehrablara) rast gəlinir. Altar dini tikilinin əsas elementi olmaqla, onlara plan quruluşunda; a) Düzbucaqlı (Zaqatalada kiçik kilsə V-VI əsrlər); b) Yarımdairəvi (Mamrux, Pipan, Çudulu- Binə); c) Çoxbucaqlı (Qəbizdə kilsəsində beşbucaqlı altar) həndəsi formalarında təsadüf olunur. Xristian məbədlərində altarın fasadda həcmli olması (Mamrux, Qəbizdərə) gələcək islam memarlığında Kəbənin istiqamətini bildirən mehrabın qurulmasına öz təsirini göstərmişdir. Belə ki, Zaqatala bölgəsində məscidlərin tədqiqində bu cür həcmli mehrablara təsadüf olunmuşdur (Aşağı Tala, Göyəm, Dardoqqaz, Qəbizdərə və s. Cümə məscidləri).

Qafqaz Albaniyasının Zaqatala ərazisindəki dini abidələri hal-hazırda dövlət tərəfindən inventarlaşdırılıb qorunsalar da, müasir vəziyyətləri ürəkaçan deyil. Qocaman tariximizin, yüzilliklərin zərbələrindən uçulub dağılmış, vaxtilə insanların mənəvi dayaq yeri olan bu ibadətgahların yer üzündən silinmək təhlükəsi günü-gündən artır. Vaxtilə yüksək memarlıq səviyyəsində inşa olunmuş, dövrünün ecazkar əsərləri sayılan bu incilərin bəzilərinin bir divarının, bəzilərinin bünövrəsinin qalıqları artıq onları itirməkdə olduğumuzun sübutudur. Məncə dövrümüzdə yaranmış siyasi torpaq problemləri, bu tipli abidələrin bərpasını ilk plana çəkməlidir və xarici turistlərin marağına çevrilmiş bu abidələr, ölkəyə böyük turist axınına səbəb ola bilər.

**Ədəbiyyat**


1. Cavadova Z.Ə. XIX əsrdə Şəki-Zaqatala regionu əhalisinin etnik və demokratik tərkibi.s.50-54
2. Ахундов Д.А. Архитектура древнего и раннесредневекового Азербайджана. Баку,1986.
3. Бабаев И.А. Города Кавказской Албании. Бакы,1980.
4. Карахмедова А.А. Христианские памятники Кавказской Албании. Баку, Элм, 1985.
5. Лавров В.А. Градостроительная культура Средней Азии. М, 1950.
6. Мамедова Гюльчохра. Зодчество Кавказской Албании.-Чашыоглу-2004
7. Мамедова Фарида. Политическая история и историческая география Кавказкой Албании. Баку, 1986


**References**


1. Javadova Z.A. XIX esrde Sheki-Zaqatala region ehalisinin etnik ve demokratik terkibi.s.50-54

2. Ahundov D.A. Arhitektura drevnego i rannesrednevekovogo Azerbajdzhana. Baku,1986.
3. Babaev I.A. Goroda Kavkazskoj Albanii. Baky,1980.
4. Karahmedova A.A. Hristianskie pamjatniki Kavkazskoj Albanii. Baku, Jelm, 1985.
5. Lavrov V.A. Gradostroitel'naja kul'tura Srednej Azii. M, 1950.
6. Mamedova Gjul'chohra. Zodchestvo Kavkazskoj Albanii. - Chashyoglu-2004
7. Mamedova Farida. Politicheskaja istorija i istoricheskaja geografija Kavkazkoj Albanii. Baku, 1986

Redaksiyaya daxil olma/Received 04.02.2019
Çapa qəbul olunma/Accepted for publication 04.03.2019